# Ümumtürk siyasi təfəkkürün İlham Əliyev örnəyi



İkinci Qarabağ savaşındakı Böyük Zəfər Turan dünyasına gedən yolu da təsbit etdi. İlham Əliyevə verilən Türk Dünyasının Ali Ordeninin statusu da bundan soraq verir: Əliyevin "Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan Xarıbülbül türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur". Türkiyə prezidenti Ərdoğanın bu sözlərini digər türk respublikalarının prezidentləri də öz imzaları ilə təsdiq etdilər. O, Qarabağı xilas etməklə, əslində, türk dünyasının mədəni, siyasi və iqtisadi bütövlüyünə yol açdı. Yüz ildən bəri türk aləmini tətikdə saxlayan "dənizdən dənizə Ermənistan" ideyasının və mifinin qarşısına bir millət və altı dövlətdən ibarət olan böyük Turan çıxdı. Turan gerçəkliyi erməni mifini dağıtdı, İlham Əliyev dünyanın gözü qarşısında erməni, Daşnaksütyun, Nemesis, Andranik, Şaan Natali mifini əzdi... Şuşanın rəmzi olan Xarıbülbül, Ərdoğanın dediyi kimi, türk dünyası üçün Zəfərin müjdəçisi və simvolu oldu.

2020-ci ilin sentyabrında başlayan Vətən müharibəmizi ümumtürk tarixinin yalnız dörd məşhur savaşı ilə qiyaslandırmaq mümkündür - 1071-ci ildə Səlcuqlu imperatoru Alparslanın zəfərlə sonuclandırdığı Malazgirt savaşı. Sonra Fatehin 1453-cü ildə İstanbulun fəthi. Sonra 1915-ci il Çanaqqala savaşı. Sonra 1922-ci il Sakarya müharibəsi. Və nəhayət, 2020-ci il. Qarabağda Vətən müharibəsi. Bu mənada İlham Əliyevi yalnız Alparslan, Fateh, Ənvər Paşa və Atatürklə qiyaslandırmaq olar. Hətta savaş üslubları da bəzən üst-üstə düşür. Sakarya müharibəsi zamanı "Səddi-müdafiə yoxdur, səddi vətən vardır" deyən Atatürk kimi, İlham Əliyev də "status-kvo yoxdur, təmas xətti yoxdur, onu biz ləğv etdik" deyir. Yaxud Ağdam məscidinin önündə İlham Əliyevin Koçaryana, Sarkisyana, Paşinyana xitabən səsləndirdiyi "Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm" sözləri Ənvər Paşanın Ədirnəni işğaldan azad edərkən dediyi sözləri xatırlatdı: "Burdayız və burda qalacağız".



30 il davam edən Qarabağ müharibəmiz Qurtuluş Savaşı müstəvisinə Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida!" hökmü ilə adladı. Millətimizin ruhunu bayraq kimi dalğalandıran bu sözlər müqəddəs Azərbaycan kitabının son savaş çağırışı oldu.

Qarabağ savaşını Qafqazlardan Parisə, Egey dənizindən Qara dənizə qədər həsədlə izləyən dünya erməniliyinə və onun pərdəarxası müttəfiqlərinə İlham Əliyevin ünvanladığı "Nə oldu, Paşinyan?" kinayəsi də Alparslanın Bizans imperatoru Diogenisə dediklərini yada salır. Bizans imperatoru Malazgirt savaşından öncə Alparslana xəbər göndərmişdi ki, "Biz İsfahanda qışlayarıq, atlarımız da Həmədanda...". Səlcuq imperatorunun cavabı korrekt olmuşdu: "Atlarınız Həmədanda qışlaya bilər, fəqət, özünüzün harda qışlayacağınızı yalnız Tanrı bilir".

1918-ci ilin 23 mayında Ənvər Paşa Qafqaz seymindəki Azərbaycanlı nümayəndələrin İrəvanı ermənilərə güzəştə getmək istəyinə kəskin reaksiya vermişdi: "Anlaşıldığına görə, ermənilər Cənubi Qafqaz müsəlmanlarına aid ərazidən bir qisim almaq istəyirlərmiş və müsəlmanlar da buna razı olacaqmış. Məncə, bu, tamamilə yanlışdır. Əgər bu gün Qafqazda beş-altı yüz min əhalisi olan və kafi miqdarda əraziyə malik kiçik bir Ermənistan təşəkkül edərsə, gələcəkdə gəlmə ermənilərlə bu hökumət milyonlarla əhaliyə sahib olacaqdır. Və o bizim üçün daha müzürr bir düşmənə çevriləcəkdir". 1918-ci ildən sonra keçən illər Ənvər Paşanın fəhmini gerçəkləşdirdi. Ermənilər erməniliyin təşəkkülü üçün onlara buraxılmış İrəvan ərazisində təşkilatlanıb böyük və ziyankar bir düşmənə çevrildi. Üstündən bir əsr keçəndən sonra Azərbaycan lideri olaraq bu acı gerçəklərin siyasi təsnifatını tarixdə ilk dəfə 2011-ci il iyulun 5-də Dünya Azərbaycanlılarının III qurultayında İlham Əliyev verdi: "Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki, sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır. Əgər onlar öz xalqının gələcəyi haqqında düşünürlərsə, öz siyasətində dəyişiklik etməlidirlər. Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdırlar və Türkiyəyə qarşı əsassız ittihamlardan əl çəkməlidirlər. Əks təqdirdə, Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər...".

Bu, Ənvər Paşa ilə başlayan ümumtürk siyasi təfəkkür faktının İlham Əliyev örnəyində sabit qalması, mental siyasi baxışın öz romantik ecazını qoruyub saxlaması demək idi.

Qarabağ zəfəri Zəngəzura Turan qapısı statusunu verdi...

Bu gün bütün dünyanın diqqəti Zəngəzurda - Turan qapısındadır...

Azər TURAN